**AZƏRBAYCAN RESPUBLİKASI**

**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA XURMA İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



**Bakı – 2021**

# Mündəricat

1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ........................................................ 3
2. Qiymət göstəriciləri ............................................................................................ 6
3. İdxal və ixrac göstəriciləri .................................................................................. 7
4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri ......................................................... 8

## 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

- 2020-ci ilin məlumatına əsasən Azərbaycanda xurma bağlarının sahəsi 12.7 min hektar olub. Belə ki, xurma bağlarının sahəsi 2015-ci ilə nisbətən 16.5%, 2019-cu ilə nisbətən isə 3.3% çox olub. Ümumi xurma bağlarının 11.5 min hektarı və ya 90.6%-i barverən yaşdadır *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda xurma bağlarının sahəsi, min ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- Cəmi xurma bağlarının 98%-i ənənəvi, 2%-i intensiv üsulla əkilən bağlardır *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda xurma bağlarının əkin strukturu**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi xurma bağlarının 65.9%-i Göyçay (14.9%), Şəmkir (14.6%), Ağdaş (10.3%), Xaçmaz (9.1%), Balakən (6.0%), Ucar (5.5%) və Goranboy (5.4%) rayonlarının payına düşüb *(Cədvəl 1).*

**Cədvəl 1. 2020-ci ildə xurma bağlarının rayonlar üzrə bölgüsü**

| | Cəmi əkmələr, ha | ondan bar verən yaşda, ha | İl ərzində yeni salınmış bağlar, ha |
|---|---|---|---|
| **Ölkə** | **12,698.2** | **11,454.3** | **283.3** |
| Göyçay | 1,894.9 | 1,887.7 | 4.2 |
| Şəmkir | 1,850.5 | 1,734.4 | 67.0 |
| Ağdaş | 1,307.7 | 968.2 | 44.5 |
| Xaçmaz | 1,157.5 | 1,085.4 | - |
| Balakən | 763.2 | 723.1 | 18.0 |
| Ucar | 703.0 | 697.0 | 6.0 |
| Goranboy | 690.9 | 674.9 | 16.0 |
| Digər | 4,330.5 | 3,683.6 | 127.6 |

***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə ölkədə xurma istehsalı 2015-ci ilə nisbətən 26.3%, 2019-cu ilə nisbətən isə 4.6% artaraq 185.2 min ton olub *(Qrafik 3).*

**Qrafik 3. Azərbaycanda xurma istehsalı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə xurma istehsalının 24.8%-i Şəmkir, 15.8%-i Göyçay, 10.9%-i Ağdaş, 8.2%-i Balakən, 5.1% Samux, 4.4%-i Xaçmaz, 4.1%-i Bərdə, 3.6%-i Zaqatala, 3.5%-i Goranboy və 3.4%-i Tovuz rayonunda olmaqla, ümumilikdə 83.7%-i 10 rayonun payına düşüb *(Qrafik 4).*

**Qrafik 4. Əsas istehsalçı rayonlarda məhsul yığımı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə xurmanın məhsuldarlığı 2015-ci ilə nisbətən 0.9%, 2019-cu ilə nisbətən isə 0.2% azalaraq 161.0 sent/ha olub *(Qrafik 5).*

**Qrafik 5. Xurmanın məhsuldarlıq göstəriciləri, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə xurmanın əsas istehsalçı rayonları olan Tovuz, Şəmkir, Samux, Ağdaş, Balakən, Zaqatala və Bərdə rayonlarında məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksək olub (*Qrafik 6).*

**Qrafik 6. Xurmanın əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. Qiymət göstəriciləri

2018-2020-ci illərdə daxili bazarda xurmanın 1 kiloqramının topdan satış qiymətləri 0.46-1.04 AZN, 2021-ci ilin yanvar-mart aylarında isə 0.52-0.65 AZN olub *(Qrafik 7).*

**Qrafik 7. Azərbaycanda xurmanın topdan satış qiymətləri, AZN/kq**




***Mənbə: aqrarbazar.az***

# 3. İdxal və ixrac göstəriciləri

- 2020-ci ildə xurma ixracı 2015-ci ilə nisbətən 31.6% artıb, 2019-cu ilə nisbətən isə 13.9% azalaraq 125.8 min ton olub *(Cədvəl 2).*

**Cədvəl 2. Xurmanın ixrac həcmi**

| İllər | İxrac miqdarı, min ton | İxrac məbləği, mln ABŞ dolları |
|---|---|---|
| **2015** | 95.6 | 77.8 |
| **2016** | 94.1 | 68.7 |
| **2017** | 118.3 | 90.9 |
| **2018** | 150.9 | 114.5 |
| **2019** | 146.1 | 104.7 |
| **2020** | 125.8 | 91.6 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

- 2020-ci ildə istehsal edilən xurmanın 67.9%-i ixrac olunub. İxrac olunan xurmanın 81.6%-i Rusiyanın, 18.2%-i Ukraynanın, 0.2%-i isə digər ölkələrin payına düşüb *(Cədvəl 3).*

**Cədvəl 3. Azərbaycandan xurma ixracının ölkələr üzrə bölgüsü**

| | 2017 | | 2018 | | 2019 | | 2020 | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** |
| Rusiya | 102,579.0 | 84,899.9 | 127,547.8 | 105,168.9 | 118,077.0 | 95,277.2 | 102,669.9 | 85,299.6 |
| Ukrayna | 15,566.5 | 5,878.0 | 23,056.3 | 9,221.1 | 27,434.1 | 9,203.3 | 22,939.0 | 6,240.6 |
| Qazaxıstan | 74.9 | 59.9 | 41.2 | 16.0 | 148.9 | 62.8 | 89.5 | 28.3 |
| Digər | 84.1 | 53.2 | 267.2 | 133.0 | 415.9 | 116.5 | 73.5 | 18.2 |
| **Cəmi ixrac** | **118,304.5** | **90,891.0** | **150,912.5** | **114,539.0** | **146,075.9** | **104,659.8** | **125,771.8** | **91,586.7** |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

## 4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

- FAO-nun məlumatına əsasən 2019-cu ildə dünya üzrə təqribən 4.3 milyon ton xurma istehsal olunub. Dünya üzrə istehsal olunan xurmanın 90%-dən çoxu 10 ölkənin payına düşüb *(Qrafik 8).*

**Qrafik 8. Xurmanın qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

- 2019-cu ildə qlobal bazarda xurma idxalının həcmi 515.5 min ton və ya 474.6 milyon ABŞ dolları həcmində olub *(Qrafik 9).*

**Qrafik 9. Xurmanın qlobal idxal həcmi**




***Mənbə: Trademap.org***

- Xurmanın əsas idxalçıları Rusiya (28.7%), Almaniya (10.1%), Ukrayna (8.6%), İtaliya (5.6%), Fransa (5.2%), Qazaxıstan (4.6%) və Belarusiyadır (4.4%).
- Qlobal bazarda xurma ixracının 90%-dən çoxu İspaniya, Azərbaycan, Çin, Özbəkistan, Litva, Polşa, Gürcüstan, Hollandiya, Koreya Respublikası və Qazaxıstanın payına düşüb *(Qrafik 10).*

**Qrafik 10. Dünya üzrə xurma ixracının ölkələr üzrə strukturu**




***Mənbə: Trademap.org***

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ